# PERSONALİA
# ПЕРСОНАЛИИ
# PERSONAL NEWS

## MƏMMƏDAĞA ŞİRƏLİYEV – 110



Professor Bəkir Çobanzadənin istedadlı tələbəsi, Azərbaycan Respublikasının dövlət mükafatı laureatı, əməkdar elm xadimi, Sovet dövrü Azərbaycan dilçiliyinin banilərindən biri, Azərbaycan EA-nın dilçilik sahəsində ilk akademiki, milli elmimizi dünya miqyasında tanıdan parlaq şəxslərdən biri, görkəmli türkoloq, filologiya elmləri doktoru, professor Məmmədağa Şirəli oğlu Şirəliyevin anadan olmasının 110 ili tamam olur. Məmmədağa Şirəliyev 1909-cu ildə sentyabrın 13-də Şamaxı şəhərində doğulmuşdur. O, 1927-ci ildə Bakıda orta məktəbi bitirib Azərbaycan Dövlət Universitetinin (BDU – o zaman belə adlanırdı) Şərq fakültəsinin dilçilik şöbəsinə qəbul olmuş və 1931-ci ildə oranı bitirmişdir. Ömrünün iki ilini Ağdam rayonunda dil-ədəbiyyat müəllimi işlədikdən sonar 1933-cü ildə Azərbaycan dilçiliyi ixtisası üzrə Azərbaycan Pedaqoji İnstitutunun (ADPU – o zaman belə adlanırdı) aspiranturasına daxil olmuşdur. Aspirantura illərindən sonra həmin institutda Azərbaycan dili fənnindən dərs demişdir.

Məmmədağa müəllim ömrünün 30 ildən çoxunu Respublikamızın müxtəlif ali təhsil ocaqlarında dilçilik kursu üzrə mühazirələr oxumuşdur. 1933-41-ci illərdə APİdə müəllim, dekan müavini, dekan, 1941-45-ci il və 1949-1960-cı illərdə Azərbaycan Dövlət Universitetində (BDU-da) Azərbaycan dilçiliyi kafedrasının müdiri, filologiya fakültəsinin dekanı, rektor müavini, 1949-cu ildə Azərbaycan EA Dil və Ədəbiyyat İnstitutunun direktoru vəzifəsində çalışmışdır. M.Şirəliyev ali məktəblərdə yüksək vəzifələr tutsa da, onun 1950-ci illərdən sonrakı fəaliyyəti (1950-1991) Azərbaycan dilçilik elminin inkişaf və zənginləşməsi işinə həsr olunmuşdur.

O, 1952-1960-cı illərdə Azərbaycan EA Nizami adına Ədəbiyyat və Dil İnstitutunun Dialektologiya şöbəsinin müdiri vəzifəsində işləmiş, həmin illərdə ADU-nun (BDU) professoru olmuşdur. M.Şirəliyev 1960-1968-ci illərdə (1968-ci ilin fevral ayına qədər) Nizami adına Ədəbiyyat və Dil İnstitutunun direktoru vəzifəsində işləmiş, 1968-ci ilin fevral ayından 1969-cu ilin

oktyabrına kimi Azərbaycan EA İctimai Elmlər Bölməsinin akademik katibi vəzifəsində çalışmışdır. 1969-cu ildə Azərbaycan EA-da müstəqil Dilçilik İnstitutu təşkil olunduqdan sonra 1988-ci ilə qədər həmin instituta rəhbərlik etmişdir. Bütövlükdə o, 31 il Dilçilik İnstitutunun direktoru olmuşdur. M.Şirəliyev 1949-cu ildə Azərbaycan EA-nın müxbir, 1962-ci ildə isə həqiqi üzvü seçilmiş, 1960-cı ildə "Azərbaycanın Əməkdar elm xadimi" adına, "Azərbaycan dialektologiyasının əsasları" monoqrafiyasına görə 1972-ci ildə Dövlət mükafatına layiq görülmüşdür. M.Şirəliyev 1944-cü ildə "Qafqazın müdafiəsinə görə" və Böyük Vətən müharibəsində "Əmək igidliyinə görə" (1941-45) medalları ilə, 1946-cı ildə "Qırmızı Əmək Bayrağı", 1954-cü ildə "Şərəf nişanı" ordenləri ilə təltif olunmuşdur. 1953-1954-cü dərs ilində M.Şirəliyev Bolqarıstan hökumətinin dəvəti ilə Sofiya Universitetinin türk filologiyası kafedrasının müdiri vəzifəsində çalışmış, 1957-ci ildə Türk Dil Qurumunun VIII qurultayında nümayəndə kimi iştirak etmiş və bu quruma üzv seçilmişdir.

Akademik M.Şirəliyevin elmi yaradıcılığı olduqca geniş və çoxşaxəlidir. O, Azərbaycanda dilçilik elminin yaranması, inkişafı və çiçəklənməsində böyük xidmətlər göstərmişdir. Bu elmin bir çox yeni sahələrinin diferensiallaşıb müstəqil elm kimi formalaşmasında, Azərbaycan dilçiliyinin dünyada, xüsusilə türkdilli ölkələrdə tanınmasında, onun müqayisəyəgəlməz əməyi elmi ictimaiyyətə yaxşı bəllidir.

Görkəmli elm xadiminin adı dialektologiya, ədəbi dil tarixi, müasir Azərbaycan dili, türkoloji dilçilik, ümumi dilçilik, Azərbaycan dilinin qrammatikası və habelə nitq mədəniyyəti, orfoepiya məsələləri, üslubiyyat, Azərbaycan dilinin dialektoloji atlası və b. sahələrin hər birinin mötəbər tədqiqatçıları sırasında iftixarla, şərəflə çəkilir. Onu elmi yaradıcılığı, elmi irsi, türkologiya elminin ən dəyərli əsərləri sırasına daxildir. M.Şirəliyev 200-dən çox elmi əsərin, 8 kitabın müəllifi, 21 kollektiv monoqrafiyanın əsas müəlliflərindən biri və redaktoru olmuşdur.

Dilçiliyimizin əksər sahələrinin yaranıb zənginləşməsində Məmmədağa müəllimin özünəməxsus, seçilən xidmətləri olsa da, o, dilçilik arenasında daha çox görkəmli dialektoloq kimi tanınmış, bu sahədə apardığı araşdırmalar ona dünya şöhrəti qazandırmışdır. Onun 1941-ci ildə müdafiəyə namizədlik dissertasiyası kimi təqdim etdiyi "Bakı dialekti" araşdırması Dissertasiya Şurası üzvləri tərəfindən yüksək qiymətləndirilmiş və o, birbaşa filologiya elmləri doktoru alimlik dərəcəsinə layiq görülmüşdür. Obrazlı şəkildə ifadə etsək, rus ədəbiyyatında hekayə M.V.Qoqolun "Şinel"indən, Azərbaycan nəsri Mirzə Cəlilin "Poçt qutusu"ndan çıxdığı kimi, dialektologiyaya həsr olunmuş sonrakı hər bir araşdırma da Məmmədağa Şirəliyevin "Bakı dialekti" monoqrafiyasından doğmuşdur, yaranmışdır. M.Şirəliyevin bu tədqiqat əsəri nəinki Azərbaycanda, eləcə də digər türk respublikalarında dialektoloji araşdırmalar, xüsusilə monoqrafik tədqiqatlar üçün bir örnək, etalon kimi dəyərlidir.

M.Şirəliyev həmçinin ekspedisiya yolu ilə də Azərbaycan dialektlərini öyrənmək üçün 1933-1958-ci illərdə fasilələrlə Qafqaz ərazisində, o cümlədən Azərbaycanın rayonlarında elmi səfərlərə başçılıq etmiş, materiallar toplamışdır. O haqlı olaraq, Azərbaycan dialektologiyası məktəbinin qurucusu sayılır. Bu gün onun bu sahədəki "Bakı dialekti" (1949, 1957)", Azərbaycan dialektologiyasının əsasları" (1962, 1968, 2006), "Диалекты и говоры азербайджанского языка" (1983) və başqa əsərləri Azərbaycan dilçiliyinin nadir nüsxələrə çevrilmiş inciləri sırasında durur. M.Şirəliyev həmçinin türk dillərinin dilçilik coğrafiyası üsulu ilə öyrənilməsi ideyasının müəllifidir. Onun rəhbərliyi və şəxsi təşəbbüsü ilə Azərbaycan dialektoloqları bu işə başlamış və 20 il gərgin əmək sərf etməklə 128 xəritədən ibarət "Azərbaycan dilinin dialektoloji atlası"nı 1990-cı ildə nəşr etdirməyə müvəffəq olmuşlar. Bu atlasın redak-

torları akad. M.Şirəliyev və prof. M.İslamovdur. Bu atlas dünya türkologiyasında ilk təcrübə, ilk nümunə olduğundan dünyanın görkəmli dilçiləri tərəfindən sonsuz maraqla qarşılanmış və yüksək qiymətləndirilmişdir. Azərbaycan dilçilərinin bu uğurundan sonra akademik M.Şirəliyev haqlı olaraq keçmiş SSRİ məkanındakı türk dillərinin ümumi dilçilik atlasının yaradılmasına rəhbərlik etmiş və həmin atlas üzrə təşkil olunmuş komissiyanın sədri seçilmişdir.

M.Şirəliyev sözün əsl mənasında böyük şəxsiyyət və pedaqoq idi. Onun professor Muxtar Hüseynzadə ilə birgə yazdığı "Azərbaycan dilinin qrammatikası" (II hissə, sintaksis) orta məktəb dərsliyi çap edildiyi 1940-cı ildən başlayaraq 50 ildən artıq tədris işinə alternativsiz xidmət etmişdir. Həmin dərslik bu gün də elmi-pedaqoji dəyərini saxlamaqdadır. Azərbaycan dilinin dialektoloji lüğətlərinin tərtibi və nəşri sahəsində də akad. M.Şirəliyevin dəyərli xidmətləri olmuşdur. Belə ki, o, 1964-cü ildə çapdan çıxmış bircildlik Azərbaycan dilinin dialektoloji lüğəti"nin redaktoru olmuşdur. Sonralar bu lüğətin sözlüyü artırılaraq Ankarada 1999-2000-ci ildə iki cild şəklində nəşr olunmuşdur. XX əsrin 60-70-ci illərində Bakı türkologiyanın mərkəzi sayıldığına görə, həmçinin akad. M.Şirəliyevin türkologiya elminin inkişafında dəyərli xidmətləri və böyük nüfuzu nəzərə alınaraq "Советская тюркология" (indi "Türkologiya" adı ilə çıxır) ümumittifaq jurnalı 1970-ci ildən Bakı şəhərində nəşr həyatına başladı, baş redaktoru isə təbii ki, akad. M.Şirəliyev oldu. O, düz 20 il bu jurnala baş redaktorluq etdi. Görkəmli elm xadimi M.Şirəliyevin Azərbaycan dilinin tətbiqi məsələlərinə aid dəyərli araşdırmaları və kitabları vardır.

Akad. M.Şirəliyevin yüksəkixtisaslı dilçi kadrların, xüsusən dialektoloqların hazırlanmasında da xidmətləri böyükdür. O, onlarla elmlər doktorunun elmi məsləhətçisi və 40-dan çox elmlər namizədinin elmi rəhbəri olmuşdur (bu sətirlərin müəllifinin də elmi rəhbəri olmuşdur, onu hər zaman minnətdarlıqla xatırlayır və "Ruhu şad olsun" deyir). Akad. Ağamusa Axundov, AMEA-nın həqiqi üzvü Tofiq Hacıyev, professorlar Rəhilə Məhərrəmova, Musa Adilov, Musa İslamov, Məmməd Qasımov, Müseyib Məmmədov, Qəzənfər Paşayev, İsmayıl Məmmədli kimi bir çox görkəmli alimlərin elmi rəhbəri olmuşdur. Onun rəhbərliyi ilə həmçinin türkdilli respublika və vilayətlərdə çoxlu elmlər namizədi və doktorları yetişmişdir. Özbək, qaraqalpaq, tatar, qazax, türkmən, çuvaş, başqırd, Qaraçay-balkar, qumuq, yakut (saxa) dilçi kadrlarının hazırlanmasında akad. M.Şirəliyevin nəcib əməyi unudulmazdır. Buna bariz nümunə olaraq göstərmək istərdik ki, Qaraqalpaq Muxtar Respublikasının Ali Soveti akademik M.Şirəliyevi bu respublika üçün kadrlar yetişdirdiyinə görə və anadan olmasının 70 illiyi münasibətilə 1979-cu ildə fəxri fərmanla təltif etmişdir.

Görkəmli elm xadimi akademik M.Şirəliyev 1991-ci il aprel ayının 19-da uzun sürən xəstəlikdən sonra 82 yaşında dünyasını dəyişdi. Məmmədağa müəllimin müasirləri onun yüksək elmi duyumunu, həssaslığını bu gün – 28 il sonra da heyrətlə, məhəbbətlə xatırlayırlar. Akademik Məmmədağa Şirəliyev belə bir insan idi: diqqətli, tələbkar, son dərəcə qayğıkeş, səmimi, nikbin, yüksək həyat eşqi ilə yaşayan, həssas...

110 illik yubileyini qeyd etdiyimiz dünya şöhrətli türkoloq, böyük Azərbaycan dilçisi, görkəmli akademik Məmmədağa Şirəliyevin əziz xatirəsi heç bir zaman unudulmayacaq, həmişə məhəbbətlə yad ediləcək, elmi ictimaiyyətin, onun tələbələrinin və onu tanıyanların qəlbində əbədi yaşayacaq. M.Şirəliyevin elmi irsi hər zaman dilçiliyimiz üçün örnəkdir, dəyərlidir və gərəklidir. Allah ona rəhmət eləsin, qəbri nurla dolsun!

*İsmayıl Məmmədli*